# Təhsilin idarə olunmasının əsasları

**Şəhla Musayeva**
*Bakı Mühəndislik Universiteti*
**E-mail:** Sehla.musayeva.1992@qmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof.Ə.Ə. Ağayev,
ped.ü.f.d., M.S. Fərəcov

**Açar sözlər:** idarəetmə, elm, inkişaf, məktəb, şagird, kollektiv, tərbiyə
**Ключевые слова:** управление, наука, развитие, школа, ученик, коллектив, воспитание
**Key words:** management, science, development, school, pupil, collective, upbringing

İdarəetmə bir elm kimi XX əsrin əvvəllərində yaranmışdı. 1991-ci ildə alim Frederik Teylor "İdarəetmənin əsas prinsipləri" adlı əsərini yazmışdır. Bəzi alimlər idarəetmənin yaranmasını həmin bu əsərin yazılması ilə əlaqələndirməyə çalışırdılar. Lakin bir sıra tarixi hadisələr göstərir ki, idarəetmə qədim dövrlərdən mövcud olmuşdur. Məsələn, Misir ehramlarının tikintisi, Böyük Çin Səddi idarəetməsiz inşa oluna bilməzdi. Deməli, idarəetmə bizim eradan əvvəl mövcud olmuş, lakin bir elm kimi XX əsrin əvvəllərində nəzəri cəhətdən əsaslandılmışdır. İdarəetmənin bir elm kimi formalaşıb inkişaf etməsi aşağıdakı idarəetmə məktəblərinin yaranıb, müəyyən tarixi dövrləri keçməsi ilə əlaqədardır.

1. Elmi idarəetmə məktəbi (1885-1920)
2. Klassik idarəetmə məktəbi (1920-1930)
3. İnsani münasibətlər məktəbi (1930-1950)
4.Müasir idarəetmə məktəbi (1950-indiyədək).( 29,16 )

1. Qədim və orta əsrlər dövrü. İdarəetmənin tarixi qədimdir. İbtidai icma quruluşunda tayfalar və qəbilələr rəhbərlər tərəfindən idarə olunurdu. Misir ehramlarının, Babilistanın asma bağlarının, Çin səddinin inşası onu göstərir ki, həmin dövrdə idarəetmə mövcud olmuşdur. Əks halda, həmin tikinti abidələri və nümunələri inşa oluna bilməzdi. Lakin onu da qeyd etmək lazımdır ki, qədim dövrdə idarəetmə çox primitiv qaydada həyata keçirilirdi. İctimai formasiyalar bir-birini əvəz etdikcə, idarəetmə də müəyyən qədər təkmilləşirdi. Bu nöqteyi-nəzərdən, orta əsrlər dövründə idarəetmə nisbətən inkişaf etməyə başladı.

2. Sənayeləşmə dövrü. Sənayeləşmə dövrü sənaye sahələrinin yaranması, xırda müəssisələrin iri müəssisələrdə təmərküzləşməsi, kiçik əmək kollektivlərinin böyük heyətlərdə birləşməsi ilə əlaqədar idi. Bu dövr XVIII əsrin axırlarından XIX əsrin axırlarınadək olan dövrü əhatə edirdi. Sənayeləşmə dövründə idarəetmə sahəsində yeni prinsiplər və metodlara ehtiyac yaranırdı. Sənayeləşmə dövründə idarəetmə fəaliyyəti özünün inkişafının yeni mərhələsinə qədəm qoyurdu. İri zavod və fabriklərin rəhbərləri idarəetmə təcrübəsinə sahib olmaqla fəaliyyətə yeniliklər gətirirdilər.

3. Sistemləşmə dövrü. Bu dövr elmi idarəetmə dövrünün yaranması ilə əlaqədar olmuşdur. Sistemləşmə dövründə idarəetmə bir elm kim sistemləşdi və onun funksiyaları, metodları, prinsipləri tədqiq olunmağa başladı. İdarəetməyə elmi yanaşma ilk dəfə 1911-ci ildə Fredrik Teylor tərəfindən həyata keçirilmişdir. F.Teylor "İdarəetmənin prinsipləri" kitabını yazmış və həmin vaxtdan idarəetmə bir elm kimi tanınmışdır.

4. Müasir dövr. Bu dövr idarəetmənin tarixi dövrləri arasında ən mütərəqqi səciyyə daşıyır.

Müasir dövr idarəetmədə riyazi-iqtisadi modellər və üsulların tətbiqi ilə xarakterizə olunur. İdarəetmənin müasir dövründə yeni texnologiyaların idarəetməyə gətirilməsinə üstünlük verilir. Yeni rabitə texnologiyalarının köməyi ilə informasiyaların ötürülməsi, kompüter texnologiyası vasitəsilə riyazi hesablamaların aparılması, məlumatların uçota alınması, saxlanılması, işlənməsi və ötürülməsi, texniki vasitələrlə hadisələrin gedişatını izləmək və müşahidələr aparmaq idarəetmənin müasir dövrünün xarakterik xüsusiyyətlərindəndir.

İdarəetmə-prinsiplərin, funksiyaların, metodların və üslubların bilavasitə həyata keçirilməsidir. İdarəetmənin elmi əsasmı elmi biliklər sistemi təşkil edir. Elmi biliklər sistemi dedikdə isə idarəetmənin praktikasınm nəzəri əsası başa düşülür. İdarəetmə yüksək şüurlu münasibətə əsaslanır, yəni elmə söykənir. Bunun hər ikisi bir-biri ilə əlaqədardır: biri olmadan digəri mümkün deyil. Tərbiyə edənlə, tərbiyə olunanın idarəetmədə birgə fəaliyyəti məktəblinin sosial çərçivədə təcrübəsini genişləndirir, məktəbdaxili pozitiv münasibətləri formalaşdırmağa kömək edir, həlledici mərhələlərdə öz fikrini deməyə imkan verir, müəllimlərlə ittifaq yaratmağa, onların yaxın köməkçisi olmağa istiqamətləndirir. Buna görə də müəllim və şagird idarəetmə orqanlarının birgə qərarının lazımlı, obyektiv və təxirəsalınmaz olması zərurəti meydana gəlir. Pedaqoji sistemdə müəllimlərlə şagirdlərin birgə fəaliyyəti mühüm amildir. Məktəbin məqsədi şəxsiyyətin mədəni inkişafının əsasını formalaşdırmaqdır. Bu əsas intellektual, əxlaqi, estetik, əmək, ekoloji, hüquqi və Şəxsiyyətin digər mədəni aspektlərini birləşdirir. Ümumi məqsəd təhsil-tərbiyə işinin ayrı-ayrı istiqamətləri üzrə məqsədlərdə konkretləşdirilir. Nəticə həm ayrı-ayrı şagirdlərin, həm də ümumiyyətlə, şagird kollektivlərinin tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsini təmin edən daha sabit və real meyarların məcmusudur.

Məktəbin idarə olunmasında ən azı iki qrup şərt vardır: ümumi və spesifik. Ümumi şərtlərə aiddir: sosial, iqtisadi, mədəni, milli, coğrafi. Spesifik şərtlərə aiddir: şagirdlərin sosial-demoqrafik tərkibinin xüsusiyyətləri, məktəbin yerləşdiyi yer (şəhər, kənd), məktəbin maddi-texniki bazası imkanları, ətraf mühitin tərbiyəvi imkanları. Pedaqoji və şagird kollektivlərində əxlaqi-psixoloji mühitin xarakteri, şagirdlərin valideynlərinin mədəni səviyyəsi pedaqoji prosesin səmərəliliyinin mühüm göstəricilərindən biridir.

Məktəbi idarəetmə sisteminin strukturunda dörd səviyyəli idarəetmə vardır.

Birinci səviyyə – dövlət orqanı və ya kollektiv tərəfindən seçilmiş məktəb direktoru, məktəb şurasının, şagird komitəsinin, ictimai təşkilatların rəhbərləri. Bu səviyyə məktəbin inkişafının strateji istiqamətlərini müəyyən edir. İkinci səviyyə – məktəb direktorunun müavinləri, məktəbin psixoloqu, sosial pedaqoqu, ictimai faydalı əməyin təşkili üçün məsul şəxs, inzibati-təsərrüfat işləri üzrə direktorun köməkçisi, həmçinin özünüidarədə iştirak edən orqanlar və birliklər. Üçüncü səviyyə – müəllimlər, tərbiyəçilər, sinif rəhbərləri (onlar şagirdlərə və valideynlərə, uşaq birliklərinə və dərnəklərə münasibətdə idarəetmə funksiyasını yerinə yetirirlər). Dördüncü səviyyə – şagirdlər, sinif və ümumməktəb şagird özünüidarəsi. Qarşılıqlı təsir obyekti olan yuxarıda göstərilən iyerarxik sxemdən görünür ki, idarəetmənin hər aşağı səviyyəli subyekti yuxarı səviyyəli idarəetmə üçün idarəetmənin obyektidir.

Məktəbi idarəetmənin məqsədi, onun strukturuna daxil olan sahələrin işinin məzmunu ilə bağlı olub, hər bir konkret şərait üçün müəyyənləşdirilir. Bunun üçün struktura daxil olan sahələrin hər birində mövcud vəziyyəti aşkara çıxarmaq, müəyyənləşdirmək və bunların nəticələrinə əsasən işi daha da təkmilləşdirmək, yaxşılaşdırmaq, onun səmərə və keyfiyyətini yüksəltmək üçün tədbirlər hazırlamaq daha əhəmiyyətli olur. Hər bir sahə üzrə konkret məqsəd müəyyənləşdirmək tələb olunur. İdarəetmənin təşkilində şagird kollektivinin

fəaliyyəti möhkəm və dərin biliyə yiyələnməyə, şagirdlərin şüurlu fəaliyyətini inkişaf etdirməyə, müstəqil biliyini artırmağına stimul yaratmağa istiqamətləndirilir.

Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanır. Menecerin (məktəbi idarə edən) fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulur.

İdarəetmənin mahiyyətini aşağıdakı prinsiplər tam və hərtərəfli əks etdirir:

1) kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsi;
2) idarəetmədə dövlət və ictimai əsasların əlaqələndirilməsi;
3) idarəetmədə elmilik, nəzəriyyə ilə praktikanın qırılmaz qarşılıqlı əlaqəsi;
4) idarəetmədə planlılıq;
5) idarəetmədə sistemlilik və komplekslilik;
6) idarəetmədə səmərəliliyə, yekun nəticələrə nail olmaq meyli;
7) idarəetmədə mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi;
8) idarəetmədə demokratikləşdirmə və humanistləşdirmə.

İdarəetmənin prinsipləri idarəetmənin qanunauyğunluqlarının konkret təzahürü və inikasıdır. Məktəbdaxili idarəetmənin əsas qanunauyğunluqları sırasına mütəxəssislər aşağıdakıları daxil edirlər:

1) idarəetmə sisteminin səmərəliliyinin idarəetmənin subyekti və obyekti arasında struktur-funksional əlaqələrin səviyyəsindən asılılığı;

2) təhsil-tərbiyə işini idarəetmənin məzmun və metodlarının məktəbdə pedaqoji prosesin təşkilinin məzmun və metodlarının xarakterindən asılılığı; idarəetmənin analitik, məqsədəmüvafiq, humanist və demokratik xarakterdə olmasının məktəb rəhbərlərinin müxtəlif növ idarəetmə fəaliyyətinə hazırlığından asılılığı.

Təhsil sisteminin idarə olunmasının dövlət xarakteri təhsil sahəsində dövlət siyasətinin prinsiplərində təsbit olunmuşdur. Həmin prinsiplər Azərbaycan Respublikasının «Təhsil haqqında» qanununda ifadə olunmuşdur: təhsilin humanist xarakteri, təhsilin dünyəvi xarakteri, hamının təhsil almaq hüququna malik olması, təhsilin demokratik, dövlət-ictimai xarakter daşıması və s. Dövlət idarəetmə orqanı olan Təhsil Nazirliyi öz hüquqları və səlahiyyətləri daxilində təhsil sahəsində standartları işləyib hazırlayır, təhsil müəssisələrini akkreditasiyadan (qeydiyyatdan), pedaqoji kadrların attestasiyadan keçirir, ölkədə və konkret regionda təhsil sistemini formalaşdırır, peşələrin və ixtisasların siyahısını, təhsil müəssisələrini maliyyələşdirir. Təhsili idarəetmənin ictimai xarakterinin güclənməsinin mühüm göstəricilərindən biri təhsil sisteminin dövlətsizləşdirilməsi və təhsil müəssisələrinin diversifikasiyasıdır (diversifikasiya latın sözüdür, mənası müxtəliflik, hərtərəfli inkişaf deməkdir). Məktəbi effektli idarə etmək üçün hazırda böyük əhəmiyyət kəsb edən biliklər, ideyalar, konsepsiyalar pedaqoji dəyərlər kimi çıxış edir. Pedaqoji sistemləri idarəetmə dəyərləri müxtəlifdir. Onlar aşağıdakılar ola bilər:

1) dəyərlər-məqsədlər. Onlar iyearxiyanın müxtəlif səviyyələrində tam pedaqoji idarəetmənin məqsədinin əhəmiyyəti və mənasını açıb göstərir. Bu məqsədlərə daxildir: təhsil sistemini idarəetmə məqsədi; məktəbi idarəetmə məqsədi; pedaqoji və şagird kollektivini idarəetmə məqsədi; şəxsiyyətin özünütərbiyəsini və özünüinkişafını idarəetmə məqsədi və s.

2) dəyərlər-biliklər. İdarəetmə sahəsində biliklərin əhəmiyyəti və mənasını açır. Buraya idarəetmənin metodoloji əsasları, məktəbdaxili rəhbərlik, pedaqoji prosesin idarə olunmasının effektiv meyarlarını bilmək və s. daxildir.

3) dəyərlər-münasibətlər. Pedaqoji prosesin iştirakçıları arasında qarşılıqlı münasibətlərin, özünə münasibətin, özünün peşə fəaliyyətinə münasibətin, pedaqoji və şagird kollektivlərində

şəxsiyyətlərarası münasibətlərin, bu kollektivlərin məqsədyönlü formalaşdırılması və idarə olunmasının əhəmiyyətini açır;

4) dəyərlər-keyfiyyətlər. İdarəetmənin subyekti olan məktəb rəhbərinin-menecerin müxtəlif fərdi, kommunikativ, davranış keyfiyyətlərini açır. Bu keyfiyyətlər xüsusi qabiliyyətləri əks etdirir: öz fəaliyyətini proqnozlaşdırmaq və onun nəticələrini qabaqcadan görməyi bacarmaq qabiliyyəti; öz məqsəd və hərəkətinin başqalarının məqsəd və hərəkəti ilə əlaqələndirmək qabiliyyəti; əməkdaşlıq etmək və əlbir idarə etmək qabiliyyəti və s.

Məktəb direktorunun idarəetmə mədəniyyətinin texnoloji komponenti idarəetmə qaydalarını və priyomlarını özündə birləşdirir. Məktəbdaxili idarəetmənin texnologiyası spesifik pedaqoji vəzifələri həll etməyi nəzərdə tutur. Bu vəzifələrin həlli pedaqoji prosesin təhlili və planlaşdırılması, təşkili, nəzarət və tənzimləmə sahəsində rəhbərin bacarıqlarına əsaslanır. Rəhbər-menecer idarəetmə dəyərlərinə və texnologiyalarına yiyələndikcə onları yeniləşdirir, onları interpretasiya (özü başa düşdüyü kimi aydınlaşdırmaq) edir. Bu, həm rəhbərin şəxsiyyət xüsusiyyətləri, həm də idarəetmənin obyektinin xüsusiyyətləri ilə müəyyən olunur. Məktəbdə gedən yeniləşmələr onun idarəetmə funksiyalarının ciddi surətdə dəyişdirilməsini tələb edir. Pedaqoji şəraiti elmi cəhətdən qiymətləndirmək, təlim-tərbiyənin gələcəyini əvvəlcədən duymaq, işdə əsas məsələləri düzgün seçmək, gündəlik işləri vaxtında icra etmək əsas məsələ kimi qarşıda durur.

Pedaqoji nöqteyi-nəzərdən aşağıdakı təhsili idarəetmənin prinsiplərini ayırd etmək mümkündür;

- İnsana hörmət və inam prinsipi;
- İnsanın vəhdət baxışları prinsipi;
- Əməkdaşlıq prinsipi;
- Sosial ədalət prinsipi;
- Şəxsi stimullaşma prinsipi;
- Konsensus prinsipi;
- Kollektiv qərar qəbuletmə prinsipi;
- Məlumat əlaqələri prinsipi.

Onlardan bəzilərini aydınlaşdıraq:

Təhsili idarəetmə nə qədər geniş anlayış olsa da, onun funksiyaları ayrı-aynlıqda deyil, bir-biri ilə əlaqəli şəkildə həyata keçirilməlidir. Hər bir funksiyanın iş prosesində uğuru və ya uğursuzluğu bir-birinə təsir göstərir. Təhsil sistemində idarəetmənin 4 əsas funksiyası qeyd edilir: planlaşdırma, təşkiletmə, motivasiya. nəzarət. İdarəetmənin məqsəd və vəzifələri :

İdarəetmə fəaliyyətinin təşkilində aşağıdakı məsələlərin həlli nəzərdə tutulur:

– idarəetmənin quruluşunun müəyyənləş dirilməsi;

– hər dövr üçün quruluş, məzmun və funksional komponentlərin ayrılması;

– idarəetmənin bütün dövrlərində işdə olan çətinlikləri aradan qaldırmaq üçün qarşılıqlı fəaliyyətin təşkil edilməsi;

– pedaqoji və şagird kollektivləri səviyyəsində idarəetmə bacarığının öyrənilib həyata keçirilməsi;

– əks-əlaqə, koordinasiya və idarəetmədə münasibətlərin yaradılması.

İdarəetmənin təşkili dedikdə rəhbərliyin məktəb daxilində həyata keçirməli olduğu sahələri nəzərdə tutmaq lazım gəlir. Təşkilatçılıq işində məktəbin kadrların seçilib yerləşdirilməsi, pedaqoji kollektiv arasında təlim-tərbiyə və ictimai tapşırıqların dəqiqləşdirilməsi, özfəaliyyət orqanları və şagirdlərin yaradıcı birliklərinin işinin təşkili, pedaqoji kadrların yüksək işgüzarlığını təmin etmək üçün şəraitin yaradılması, optimal

rejimin təmin olunması, ümumməktəb kollektivinin dəqiq və mürəkkəb iş ritminin qaydaya salınması, işçilərin hüquq və vəzifələrinin müəyyənləşdirilməsi kimi aktual məsələlər öz əksini tapır.

**Məqalənin aktuallığı**. Təhsilin idarə olunması məsələsi bütün zamanlarda ən vacib, böyük əhəmiyyət kəsb edən problemlərdən biri olmuşdur. Yeni təhsil standartlarının tətbiq edildiyi ölkəmizdə və indiki dövrdə bir daha bu məsələnin araşdırılması öz aktuallığı ilə diqqəti cəlb edir.

**Məqalənin elmi yeniliyi**. Elmi yenilik ondan ibarətdir ki, məqalədə təhsilin idarə olunmasının əsaslarını araşdırılması ilə yanaşı, onun tarixi inkişaf yolu da araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Erdoğan İ. Okul yönetimi ve öğretim liderliği. İstanbul: Sistem Yayıncılık, 2003.
2. Eren.E. Stratejik Yönetim. Eskişehir: Anadolu Universitesi, 2006.
3. Cabbarov R.H. Təhsil müəssisələrinin idarə edilməsi məsələləri. Bakı: Müəllim, 2011.
4. Cabbarov R.H. Təhsil müəssisələrinin idarə edilməsində metodik xidmətin təşkili və planlaşdırılması. Bakı: Müəllim, 2004.
5. Bayramov H. Təhsilin idarə edilməsinin əsasları. Bakı: Beynəlxalq Universitet, 2010.
6. Bayramov H. B., Kəlbəliyev Ə.A. Təhsili idarəetmənin əsaslan. Bakı, 1998. İnternet səhifələr
7. http://kayzen.az
8. Təhsil və zaman qəzeti. 01.16.2014

**Ш. Мусаева**

## Основы управлении обучении

## Резюме

В статье раскрывается сущность основы управлении обучении, указывается их основные направлении. А также в статье затрагивается к проблемам развитии управленческой школы в мире.

**Sh. Musayeva**

## Bases of managing of the education

## Summary

Essence of the bases of managing in the article of the education is elucidated and his basic directions are shown. It is touched to problem of development in the article and world of the management school.